# «Ölkəmizi tanıyaq» tur-aksiyası gənclərə dövlət qayğısının təzahürüdür

## «Ölkəmizi tanıyaq» tur-aksiyasının iştirakçıları Qəbələdə

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, martın 15-dən respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün nəzərdə tutulan "Ölkəmizi tanıyaq" adlı növbəti maarifləndirici tur-aksiyaya start verilib.***




Tur-aksiyada iştirak edən Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy məktəblilərindən ibarət 9 qrupun üzvləri martın 15-də, günorta saatlarında Qəbələyə gəliblər. Şagirdləri Qəbələ şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri qarşılayıblar.

Rayonumuza gələn 360 şagird və onlara rəhbərlik edən müəllimlər "Qafqaz Karvansaray" və "Qafqaz Sport" otellərinə yerləşiblər. Onlar nahar etdikdən sonra Qəbələ ilə tanış olublar. Proqrama uyğun olaraq əvvəlcə Dəmiraparan çayının sahilində "Ölkəmizi tanıyaq" devizi altında ağacəkmə aksiyası keçirilib. İDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyası zamanı məktəblilər 360 ədəd küknar, ağcaqayın və palıd ağacı əkiblər.

Qəbələyə səfərlərinin ilk günü gözəl mənzərəli Nohur gölünün ətrafında gəzintiyə çıxan məktəblilər xatirə şəkilləri çəkdiriblər.

Sonra Yengicə kəndindəki zooparka ekskursiya edən şagirdlərə zooparkın yaranma tarixi və orada saxlanılan heyvanlar barədə məlumat verilib.

Tur-aksiya iştirakçıları növbəti gün Qəbələnin tarixi məkanları, turizm obyektləri və istehsal müəssisələri ilə tanış olublar.

**"Qəbələ"**

## Qəbələdə "Nə? Harada? Nə zaman?" intellektual oyunu təşkil olunub

***Qəbələ ilə tanış olan, rayonun tarixi abidələrinə, turizm obyektlərinə və istehsal müəssisələrinə ekskursiya edən Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy məktəbliləri arasında "Nə? Harada? Nə zaman?" IX milli intellektual oyunu keçirilib.***



"Ölkəmizi tanıyaq" layihəsinin sonuncu günü Azərbaycan İntellektual Klublar Assosiasiyasının təşkilatçılığı ilə "Qafqaz Sport" otelində keçirilən bu oyunda məktəblilər öz biliklərini nümayiş etdiriblər. Məlumat verilib ki, "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində ənənəvi olaraq təşkil edilən bu intellektual oyunun keçirilməsində əsas məqsəd şagirdlərin indiyədək qazandığı bilikləri və onların dünyagörüşünü artırmaq, ən savadlı gəncləri aşkara çıxarmaqdır.

İki saat davam edən yarışda hər rayondan 36 şagird iştirak edib və onlar hər birinin tərkibində 6 nəfərin olduğu 6 qrupa bölünüblər. İştirakçılara "Ölkəmizi tanıyaq" layihəsinə uyğun olaraq məntiq, tarix, Azərbaycan filmləri, dünyagörüşü, abidələrimiz, dahi şəxsiyyətlər, dünyada baş verən maraqlı hadisələr, məktəbdə tədris olunan fənlər üzrə 24 sual verilib. Şəffaflığın təmin olunduğu yarış gərgin mübarizə şəraitində keçib.

Oyunun nəticələrinə görə, Gəncə məktəbliləri birinci və üçüncü, Goranboy şagirdləri 2-ci yerləri tutublar. Qaliblərə kubok, medallar və sertifikatlar təqdim olunub.

**"Qəbələ"**

## Qəbələ ilə tanışlıq şagirdlərdə böyük maraq oyadıb

***Prezident İlham Əliyevin tapşırığına əsasən orta məktəblərin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçıları Qəbələnin sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, rayonun müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, son illərdə inşa edilən sosial obyektləri, əyləncə və istirahət mərkəzləri, tarix-mədəniyyət abidələri, təbiəti, turizm infrastrukturu və muzeyləri ilə tanış olublar.***

Əvvəlcə Heydər Əliyev Mərkəzini ziyarət edən şagirdlər ulu öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillərə və sənədlərə baxıblar. Məktəblilər muzeyin qarşısında kollektiv xatirə şəkli çəkdiriblər.

Məktəblilərin Qəbələ ilə tanışlığının növbəti ünvanı Qəbələ regional "ASAN xidmət" mərkəzi olub. Onlara məlumat verilib ki, "ASAN xidmət" mərkəzi Qəbələ, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Ağsu, Şamaxı və Qobustan rayonları ərazisində qeydiyyatda olan, ümumilikdə, 902 min 435 sakinə xidmət göstərir. Dördmərtəbəli "ASAN xidmət" mərkəzində bank, sığorta, hüquqi yardım, tərcümə, foto və tibb xidmətləri də həyata keçirilir. Operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsipləri əsasında qurulan fəaliyyətin başlıca hədəfi vətəndaşların rahatlığını təmin etmək, dövlət məmuru-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə nail olmaqdır.

Bölgənin ən çox turist qəbul edən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi ilə tanışlıq zamanı şagirdlərə məlumat verilib ki, kompleksin 4 kanat xətti və 10 xizək yolu istifadəyə verilib. Turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu "Tufandağ" oteli açılıb. Bütün dağ-xizək trassı süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib. İlin bütün fəsillərində gün ərzində kompleksdə 3 min nəfərə xidmət göstərilməsi üçün şərait yaradılıb. Ümumilikdə 4 kanat xəttinin uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu 17 kilometrdir. Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi son illər ölkəmiz üçün yeni idman növü olan xizəkçiliyin gənclər arasında yayılmasına səbəb olub. Kompleksin xizəkçilik mərkəzi həm turizmin inkişafı, həm də yeni dağ idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir. Şagirdlər kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini və ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edib, xatirə şəkli çəkdiriblər.



Heydər Əliyev Konqres Mərkəzi ilə tanışlıq da maraqlı keçib. Bildirilib ki, 1200 yerlik mərkəz üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə zallar, 350 yerlik restoran və inzibati otaqlar yerləşir. Çoxfunksiyalı 1200 yerlik konfrans zalı isə ikinci mərtəbədədir. Konfrans zalı qısa müddətə müxtəlif məqsədlər - konsert, iclas üçün yararlı hala, kresloların aşağı enməsi ilə isə müstəvi halına gətirilə bilir. Qeyd olunub ki, Qəbələ turizm bölgəsi olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli zirvə görüş və konfranslarına, mədəniyyət, incəsənət tədbirlərinə, idman yarışlarına da ev sahibliyi edir.




Sonra şagirdlər tarix-diyarşünaslıq muzeyində 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər. Diqqətə çatdırılıb ki, muzeyin əsas fondunda Qəbələnin 2500 illik tarixini əks etdirən 12 mindən çox tarixi və elmi əhəmiyyətə malik eksponat mühafizə olunur.

Daha sonra Nic qəsəbəsinə səfər edən şagirdlər buradakı "Cotari" Alban-Udi xristian kilsəsinə baxıblar. Məktəblilərə bildirilib ki, Nic qəsəbəsi udilərin dünyada kompakt şəkildə yaşadığı yeganə yaşayış məntəqəsi olmaqla tolerantlığın kiçik modeli hesab edilir. Qəsəbədə 3 kilsə və iki məscid var. Altı min əhalisi olan qəsəbədə 3700 nəfər udi yaşayır. Nic qəsəbəsində udilər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Buradakı məktəblərin ibtidai siniflərində udi dili tədris olunur.

Məktəblilər "Beltmann" piano fabrikində və Qəbələ konserv zavodunda istehsal prosesini izləyiblər.

Həmçinin şagirdlər Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna səfər edib, qədim Qəbələ şəhərinin qalıqları, ərazidə aparılan arxeoloji qazıntıların nəticələri, eləcə də Qəbələ Arxeoloji Mərkəzində nümayiş olunan maddi-mədəniyyət nümunələri ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Qəbələnin çox zəngin tarixi var. Rayondakı ölkə əhəmiyyətli qədim memarlıq abidələri mədəni irsimizin nadir inciləri hesab olunur. Bildirilib ki, Qəbələnin keçmişi də təbiəti qədər zəngin olaraq Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Məktəblilərə qədim Qəbələ şəhərinin bu günədək gəlib çatan qalıqları, qala divarı və burada aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri barədə ətraflı məlumat verilib.

Şagirdlər asudə vaxtlarında Qəbələnin müasir otellərinə, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzinə baş çəkib, rayonun füsunkar təbiəti ilə tanış olublar.

**"Qəbələ"**